Tarix və onun problemləri, №1 2010

**FUAD BABAYEV**
*Azərbaycan Milli Elmlər Akademiyası*

# AZƏRBAYCAN MEDIASI VƏ VƏTƏNDAŞ INTEQRASIYASI
## (Mətbuat tariximizdən bəzi məqamlar)

Azərbaycanın ictimai həyatının ən mühüm hadisələrindən biri olan milli mətbuatın formalaşması XIX əsrin ortalarına təsadüf edir. Azərbaycan və eləcə də bütün şərq aləmi üçün tamamilə yeni siyasi, mədəni və elmi ünsiyyət vasitəsi olan mətbuatın yaranması əslində ölkədə gedən mühüm ictimai-siyasi, iqtisadi və mədəni proseslərlə, o cümlədən maarifçilik hərəkatının, dünyəvi teatrın və yeni tipli məktəbin təşəkkül tapması ilə sıx bağlıdır.(1)

1832-ci ildə "Tiflis əxbarı" qəzeti və 1845-ci ildə "Zaqafqazski vestnik" qəzetinə "Qafqazın bu tərəfinin xəbəri" adlı azərbaycanca buraxılan əlavə milli mətbuatın yaradılması istiqamətində atılmış ilk addımlar olmuşdur. Rəsmi bülleten xarakteri daşıyan həmin nəşrlər sözün əsil mənasında hələ qəzet adlandırıla bilməzdi.(1)

Milli mətbuatımızın bünövrəsi 1875-ci il iyunun 22-də "Əkinçi" qəzetinin ilk nömrəsinin nəşri ilə qoyuldu. Böyük Azərbaycan maarifçisi H.B.Zərdabinin təsis etdiyi bu qəzet Rusiya imperiyasında "türk-tatar dili" adlandırılan Azərbaycan dilini ictimaiyyətlə əlaqələr vasitəsinə çevirdi. H.B.Zərdabi mətbuatın köməyi ilə yerli, regional və regionlararası rəy və informasiya mübadiləsinə cəhd göstərirdi.

XIX əsrin ikinci yarısında, dünyanın oyanış vaxtında Azərbaycanda ortalığa qəzet qoyulmaması mümkün deyildi. Ancaq bu, ilk addım məktəb səviyyəsinə yüksəldi. "Əkinçi" əslində formalaşmış Qərb mətbuatının modelində meydana çıxdı və bu qəzetdən sonra gələn bütün qəzetlər onun modelinə, informasiya siyasətinə söykəndilər.(2)

Demokratik ideyaların carçısı olan "Əkinçi" elm, mədəniyyət, maarif, ədəbiyyat və incəsənətin inkişafı, yeni tipli məktəblərin yaradılması istiqamətində təbliğat aparırdı. 19-cu əsrin tanınmış ziyalıları olan Mirzə Fətəli Axundov, Nəcəf bəy Vəzirov, Seyid Əzim Şirvaninin qəzetin ətrafında toplaşması isə onun sanbalını daha da artırırdı.

Milli-demokratik mətbuatın "Əkinçi" qəzeti tərəfindən bəyan edilmiş başlıca prinsipləri – maarifləşmə, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması Azərbaycanda milli demokratik mətbuatın gələcək inkişafı üçün təməl daşları rolunu oynadı.

1905/06-cı illərədək "Əkinçi" qəzeti ətrafında yaranmış məktəb jurnalist dairəsinin formalaşmasına, yeni qəzetlərin – "Ziya" (1879/80), "Ziya Qafqazia" (1880/84), "Kəşkül" (1880/84), "Şərqi-Rus" (1903/04) və "Hümmət" (1904/05), təşəkkül tapmasına təsir göstərdi. "Mola Nəsrəddin" (1906) jurnalının meydana gəlməsi ilə isə Azərbaycan mətbuatının inkişafında yeni mərhələ başladı.(3)

"Ziya" və "Ziya Qafqazia" qəzetləri "Əkinçi"nin birbaşa varisləri idi. "Ziya" qəzetinin "Ziya Qafqazia" qəzeti əvəz edənədək 76 sayı çapdan çıxmışdı. Qəzet 4-8 səhifə həcmində çıxır və litoqrafik üsulla nəşr olunurdu. Müasirlərdən biri, görkəmli Azərbaycan ziyalısı F.Köçərli bu qəzetin maarifpərvər islam publisistikasının inkişafında böyük rolunu qeyd edirdi.

Azərbaycan cəmiyyətinin savadlı təbəqəsinin publisistik fəaliyyətinin inkişafında Bakıda nəşr olunan "Kaspi" qəzeti çox mühüm rol oynamışdır.

"Kaspi" qəzeti Qafqazda ən kütləvi və təsirli mətbuat orqanı idi. O, Azərbaycanda ictimai fikrin inkişafına əhəmiyyətli təsir göstərir, onun formalaşması prosesində milli ziyalılara şərait yaradırdı.(4)

Əvvəllər həftədə iki dəfə, 1881-ci ilin iyulundan üç dəfə çıxan qəzet, 1884-cü ildən gündəlik nəşr olunmağa başlamışdır. Müxtəlif vaxtlarda qəzetin baş redaktoru kimi V.Kuzmin, E.Starsev, P.Qordievskiy, Ə.Topzubaşov, H.Məlikov, Ə.Hüseynzadə və A.Vaynberq fəaliyyət göstərmişdir. Məşhur milyonçu H.Z.Tağıyev "Kaspi" qəzetini və onun çap olunduğu nəşriyyatı aldıqdan sonra, qəzetin işçi heyəti onun evlərindən birində məskən salmışdır. Redaktor postuna Əlimərdan bəy Topçubaşov gəldikdən sonra isə yerli müəlliflər öz məqalələrini dərc etdirmək üçün böyük imkan əldə etdilər. Məhz bu andan etibarən, rus dilində çıxmaqda davam etsə də, qəzeti əsl Azərbaycan qəzeti hesab edirdilər. H.Z.Tağıyev həmçinin, 1905/06-cı illərdə dərc olunan "Həyat" qəzetini maliyyələşdirirdi. Ə.Topçubaşovun naşir, Ə.Ağayevin və Ə.Hüseynzadənin redaktor olduqları qəzet, birinci rus inqilabı dövründə Azərbaycan ziyalılarının ruporuna çevrilmişdi.(3)

XX əsrdə Azərbaycan dilində çıxan ilk qəzet Məmmədağa Şahtaxtinskinin 1903-cü ildə Tiflisdə buraxdığı ictimai-siyasi, iqtisadi, elmi, ədəbi "Şərqi-rus" qəzeti olmuşdur. Qəzetin Azərbaycanda ictimai fikir tarixinin inkişafında xüsusi yeri olmuşdur. Qəzetdə dünyəvi elmlər, ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər əksini tapırdı. "Şərqi-rus" qəzeti Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Ömər Faiq Nemanzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əli Nəzmi kimi böyük maarifçiləri öz ətrafında birləşdirə bilmişdi. "Şərqi-rus" qəzeti ətrafında formalaşmış yaradıcı heyət Azərbaycanda mətbuatın inkişafının yeni mərhələsinin başlanması üçün zəmin yaratdı.(1)

XX əsr Azərbaycan mətbuatı tarixində mühüm mərhələni təşkil edir. 1905-1907-ci illərdə Çar Rusiyasında baş verən inqilabi proseslər şəraitində "Mətbuat haqqında" qanun qəbul edildi və müxtəlif siyasi axınların mətbuat azadlığına zəmanət verildi.(5)

XX yüzilin əvvəlində mətbuat meydanına yeni bir nəfəslə, milli oyanış ideyaları ilə, əvvəlindəAzərbaycanın özünüdərk aktı və faktı kimi daxil olan "Füyüzat" jurnalı (1906-1907) xalqımızın mədəni inkişafında dövrün tarixi rolunu ifadə etmişdir. Cəmi 32 nömrəsi çap edilən bu dərgi cild-cild kitablara bərabər iş görmüş, dil, üslub keyfiyyətləri ilə ədəbi dil tariximizdə mütərəqqi rol oynamışdır.(6)

1906-cı il aprel ayının 7-də isə yalnız Azərbaycanda deyil, bütün şərqdə hadisəyə çevrilmiş "Molla Nəsrəddin" adlı satirik mətbu orqanın təməli qoyuldu. Dərgi fasilələrlə Tiflisdə (1906-1918), Təbrizdə (1920-1921), Bakıda (1922-1932) 25 il müddətində nəşr olunub. "Molla Nəsrəddin" jurnalının tədqiqatçısı Turan Həsənzadə qeyd edir: "Dünya hadisələrindən tutmuş cəhalət, mövhumat, məişət – ümumiyyətlə elə bir sahə yoxdur ki, "Molla Nəsrəddin"in diqqətindən kənarda qalsın. "Molla Nəsrəddin" ən müxtəlif mövzuları öz səhifələrində 25 ilə yaxın işıqlandıran, təhlil edən yeganə jurnaldır. Karikaturaları isə əsl sənət nümunələridir. Son dərəcə ustalıqla çəkilən bu şəkillərdə istənilən məğz savadsız insanlara belə çatdırılıb".(7)

"Molla Nəsrəddin"in ardınca onun təsiri altında "Arı", "Bəhlul", "Tuti", "Zənbur", "Məzəli", "Babayi-Əmir" (1907-1917-ci illər) satirik jurnalları nəşrə başladı. Uşaqlar və onların valideynləri üçün "Dəbistan" (1906-1908), "Rəhbər" (1906-1907), "Məktəb" (1911-1917) jurnalları işıq üzü gördü. (8)

Azərbaycan Xalq Cümhuriyyəti dövründə, iki ilə yaxın bir vaxt kəsiyində Bakıda, Tiflisdə, Gəncədə və başqa inzibati mərkəzlərdə ideya istiqamətlərinə görə bir-birindən uzaq 80-dən çox qəzet və jurnal çıxırdı. Bunlardan 39-u Azərbaycan türkcəsində, 44-ü rus və başqa dillərdə nəşr olunurdu. AXC dövründə "Azərbaycan" qəzetinin müstəsna

yeri var idi. "Azərbaycan" qəzeti həm Azərbaycan, həm də rus dilində hər gün çıxırdı. Azərbaycan redaksiyasına ayrı-ayrı vaxtlarda C.Hacıbəyli, Ü.Hacıbəyli, Xəlil İbrahim rəhbərlik etmiş, rus dilindəki nəşrin redaktorları isə C.Hacıbəyli və Ş.Rüstəmbəyov idi. Xalqın Milli-azadlıq şüurunun formalaşmasında fəal iştirak edən "Azərbaycan" qəzeti eyni zamanda respublika hökumətinin rəsmi sənədlərini, qərar və fərmanları, parlament iclaslarından materialları çap edirdi. Bununla "Azərbaycan" qəzeti Xalq Cümhuriyyətinin şanlı salnaməsi tarixini yazmışdı. (9)

1919-cu il oktyabrın 15-də parlamentdə mətbuat haqqında qanun qəbul edilmişdi. Cümhuriyyət dövründə bu sahədə demokratik prinsiplərin yaşadığını iqtidaryönlü mətbuatla yanaşı, Azərbaycan və rus dillərində təqribən 40 adda nəşr olunan müxalifət qəzetinin də ("Əxbar", "Al bayraq", "Zəhmət sədası", "Azərbaycan füqərası", "Беднота", "Рабочий путь", "Məşəl" və b.) fəaliyyət göstərməsi sübut etməkdədir. (9)

Azərbaycanda 1920-ci ilin aprelin 28-də Sovet hakimiyyəti qurulduqdan sonra milli mətbuatın inkişafında yeni mərhələ başladı. Sovet mətbuatı kütlələrdə avtoritar şüurun formalaşdırılmasına və onların "sosializm" uğrunda mübarizəyə səfərbər edilməsinə xidmət edirdi. Qəzetlər rəsmi dövlət siyasətinin "marksist-leninzi ideyaların" yayılması, "yeni insanların – sosializm qurucularının" formalaşması üçün güclü partiya silahı idi. Lakin məhz bu illərdə qəzet və jurnalların şəbəkələri genişləndi, mətbuat kütləvi informasiya vasitələrinin yeni növləri hesabına zənginləşdi. Bu dövrdə "Kommunist" (ilk nömrəsi 1919-cu ildə çıxmışdır), "Бакинский рабочий" (1906-cı ildən çıxır), "Вышка" (1928-ci ildən çıxır), kimi qəzetlər böyük tirajla çıxırdı. Sonrakı dövrlərdə "Azərbaycan gəncləri", "Молодежь Азербайджана" (ilk nömrələri 1919-cu ildə çıxmışdır), "Ədəbiyyat və incəsənət"(1934-cü ildən çıxır), "Bakı", "Baku" (1958-ci ildən çıxır) kimi qəzetlər də nəşr olunmağa başladı.

Ötən əsrin 80-ci illərinin sonlarında Azərbaycanda kütləvi informasiya vasitələri öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Ermənistanın Dağlıq Qarabağla bağlı Azərbaycana yönəlik ərazi iddialarına qarşı kütləvi və davamlı etiraz aksiyalarına başlayan xalqımız bütün sovet respublikalarında onilliklər ərzində mövcud olan ictimai-siyasi süstlüyü ilk pozanlardan oldu. Yüz minlərlə insanın qatıldığı böyük mitinqlər azad söz, kəskin və alternativ fikirlər üçün əsl tribunaya çevrildi. Bu ictimai-siyasi proseslər çox keçmədi ki, milli mətbuata da öz təsirini göstərdi.

1995-ci ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul olunması ölkənin siyasi və iqtisadi prioritetlərini müəyyənləşdirdi. Bütün sahələrdə köklü islahatların həyata keçirilməsinə başlanıldı. Ölkədə fikir plüralizminə, söz və məlumat azadlığına, Konstitusiya təminatı verildi. 1998-ci ildə senzuranın ləğv olunması Azərbaycanda demokratiyanın, aşkarlığın, o cümlədən KİV-in inkişafına güclü təkan verdi.

Müstəqillik illərində əldə edilmiş nailiyyətlər Azərbaycanda demokratik təsisatların inkişafına mühüm töhfə vermişdir. KİV-in sərbəst fəaliyyətinin təmin edilməsi üçün qanunvericilik bazası tam təkmilləşdirilmiş və beynəlxalq standartlara uyğunlaşdırılmışdır. 1999-cu ildə qəbul edilmiş "KİV haqqında" qanun, 2005-ci ildə qəbul edilmiş "İnformasiya əldə etmək haqqında" qanun və digər qanunlar KİV-in hərtərəfli inkişafına təminat yaratmışdır. KİV-in kəmiyyətinə görə bu gün Azərbaycan MDB ölkələri arasında lider mövqelərdən birini tutur. Bu günə olan məlumata görə ölkədə 4100-dən artıq KİV təsis edilmişdir. Qəzet və jurnallardan 100-dən artığı müntəzəm, qalanları isə müxtəlif fasilələrlə işıq üzü görür. Təsis edilən qəzet və jurnallar müxtəlif siyasi ictimai mövqeli təşkilatlara, özəl qurumlara və fiziki şəxslərə məxsusdur. (10)

Azərbaycan Respublikası Milli Məclisinin orqanı, rəsmi dövlət qəzeti "Azərbaycan", Prezidentin İşlər İdarəsinin "Respublika", "Xalq qəzeti" və "Бакинский рабочий"

qəzetləri, "Ayna"-"Zerkalo", "Эхо", "Kaspi", "Azadlıq", "Şərq", "Bizim əsr", "525-ci qəzet", "Azərbaycan nyus" və s. onlarla başqa qəzet və jurnal mövcud reallıqları ən müxtəlif mövqelərdən əks etdirirlər. Yeni auditoriya təbəqəsinin (məsələn, sahibkarların) formalaşması bir sıra işgüzar kütləvi informasiya vasitələrinin ("Konsaltinq ənd Biznes", "Kaspian Enerji" və s.), siyasi partiyalarının fəaliyyəti isə onların nəzər nöqtələrini əks etdirən mətbu nəşrlərin ("Yeni Azərbaycan", "Yeni Müsavat" və s.) yaranmasına səbəb olmuşdur.

Yarandığı 135 il ərzində Azərbaycan milli mətbuatı zəngin və mənalı bir inkişaf yolu keçmişdir. Azərbaycan xalqının qədim ədəbi və mədəni irsə malik olması, Şərq və Qərb sivilizasiyasının qovuşduğu məkanda formalaşmış mədəniyyəti demokratik milli mətbuatın gələcək inkişafı üçün möhkəm zəmin yaratmışdır.

## *ƏDƏBİYYAT:*

1.Heydər Əliyev "Müstəqilliyimiz əbədidir", 25-ci cild. Bakı, "Azərnəşr" -2008
2.http://bizimasr.media-az.com/arxiv_2003/iyul/167/meden.html
3. Ева-Мария Аух – «Между приспособлением и самоутверждением», http://www.sakharov-center.ru/publications/azrus/az_003.htm
4. http://www.azmaison.fr/az/index_az.
5. http://www.atas.vl.ru
6. S.Hüseynova "Füyüzat" jurnalı və dil problemləri. Bakı, "Elm", 2006
7. "Bizim əsr" qəzeti, 7 aprel 2002-ci il
8. "Azərbaycan tarixi (1900-1920-ci illər)", Bakı, "Elm", 2008
9. http://www.azmaison.fr/az/index_az.
10. "Demokratik cəmiyyətdə media: beynəlxalq və milli təcrübə" Beynəlxalq Konfransının materialları, Bakı, "Apostrof"-2010.

## РЕЗЮМЕ

В статье исследуются некоторые моменты истории азербайджанской печати. Автор смотрит на путь развития азербайджанской печати, условия возникновения ряда газет, играющих важную роль в нашей истории общественного мнения.

Автор рассказывает о значимости фактора национального просвещения таких образцов печати, как «Экинчи» («Пахарь»), «Каспий», «Хайат» («Жизнь»), «Шарги – рус», «Фюйузат» («Изобилие»), «Мола Насреддин». В статье исследуется роль, которую играла печать в период царской России, Народной республики, советский период и играет в период независимости.

## SUMMARY

The article deals with some points of the history of the Azerbaijani press. Article takes a glance to the way of development of the Azerbaijani press; conditions for the creation of some newspapers which played an important role in the history of public opinion.

The author speaks of the importance of the newspapers - "Akinchi", "Hayat", "Shargi-rus", " Molla Nasreddin" as a factor in national education. Article explores the role of the press during the Tsarist Russia, Democratic Republic and the Soviet period.

***Rəyçilər: t.e.d.A.Ə.Məmmədov, t.e.d.İ.X.Zeynalov.***